# Azərbaycan-Çin münasibətləri artıq beynəlxalq dəhlizlərlə məhdudlaşmır

## İndi ölkələrimiz qarşılıqlı maraq doğuran bütün sahələr üzrə strateji tərəfdaşdırlar

Son dövrlər Çinin Azərbaycana xüsusi maraq göstərməsinin şahidi oluruq. Bu, təbii ki, səbəbsiz deyil. Əvvəla, Asiya nəhənginin "Bir kəmər, bir yol" layihəsində ən önəmli tərəfdaşı Azərbaycandır. Başqa sözlə, ÇXR tərəfindən irəli sürülən bu layihədə Azərbaycan açar ölkədir.

İkincisi, Şərqdən Qərbə gedən önəmli ticarət marşrutu olan Orta dəhliz də Azərbaycandan keçir və bu marşrutla Çin ölkəmizin üzərindən şimal və cənub istiqamətlərinə də yük göndərə bilir. Yəni Çin bizim üçün önəmli olduğu qədər biz də onun üçün əhəmiyyətliyik.

Çinin dövlət başçısı Si Cinpinlə Prezident İlham Əliyev arasında dəfələrlə görüşlər olub və bu görüşlərdə ikitərəfli mübasibətlərin perspektivləri müzakirə edilib. Təsadüfi deyil ki, Çində "Bir kəmər, bir yol" layihəsinə həsr olunmuş beynəlxalq konfransa dəvət olunan azsaylı ölkələrdən biri də Azərbaycan idi. Tədbir öncəsi və konfrans çərçivəsində dövlət başçıları iki ölkə arasında əməkdaşlığın mühüm istiqamətlərini müəyyənləşdirmişlər. Həmin görüşlərdən sonra ölkələrimiz arasındakı münasibətlər dəhlizlər çərçivəsindən kənara çıxaraq bir çox mühüm sahəni də əhatə etmişdir.

Prezident İlham Əliyev Çinin CGTN telekanalına müsahibəsində iki ölkə arasında olan əlaqələrin hüdudlarının geniş olduğunu bildirərək demişdir: "...Azərbaycanın Orta dəhlizlə bağlı mövqeyi sadəcə tranzit ölkəsi olmaq və tranzitdən ödənişlər almaqdan ibarət deyil. Bizim hədəfimiz özəl sektora bundan faydalanmağa kömək etmək üçün dəhlizin keçdiyi Azərbaycan ərazisində müəssisələr yaratmaqdır. Əlbəttə ki, sizin istinad etdiyiniz paneldən bəri bu sahədə, o cümlədən Çin-Azərbaycan münasibətlərində bir çox hadisələr baş vermişdir. Artıq qeyd etdiyimiz kimi, biz strateji tərəfdaşıq, lakin eyni zamanda Orta dəhlizin Azərbaycan seqmentinin infrastrukturu təkmilləşdirilmişdir. Hazırda biz görürük ki, bu təkmilləşdirilmiş infrastruktur gələcək 3-5 il üçün kifayət etməyəcək".

Orta dəhliz dünyanın yeni və ən əhəmiyyətli qlobal ticarət marşrutuna çevrilir. Artıq bu dəhlizə təkcə Çin deyil, Avropa ölkələri də maraq göstərir. Çünki bu marşrut həm təhlükəsizlik, həm də yüklərin mənzilbaşına tez çatması baxımından sərfəlidir. Odur ki, hazırda Orta dəhlizlə daşınan yüklərin həcmi sürətlə artmaqda davam edir.

Orta dəhlizlə yüklərin daşınmasında Bakı Beynəlxalq Ticarət Limanının xüsusi payı var. Ona görə ki, Çindən gələn yüklər Xəzər dənizi üzərindən aşırılmalıdır. Bunun üçün limanın texniki imkanları geniş olmalıdır. Hazırda limanda yükaşırma qabiliyyətini artırmaq üçün yeni layihələr həyata keçirilir. Məqsəd daha çox tranzit yükün ölkəmiz üzərindən daşınmasına əlverişli imkan yaratmaqdır. Bizim ilk hədəfimiz limandan ildə 15 milyon ton yükaşırmaq idi. İndi məlum olur ki, Orta dəhlizə dünyada artan maraq sayəsində yaxın 5-6 ildə 25 milyon ton yükün daşınması gözlənilir. Bu barədə Prezident İlham Əliyev sözügedən müsahibəsində bildirmişdir: "…bizim hədəfimiz ticarət limanında 15 milyon ton yükaşırma qabiliyyətinə malik olmaq idi və bu da onilliklər ərzində yetərli olardı. Lakin indi biz ola bilsin ki, növbəti 5-6 ildə 25 milyon ton yük qəbul etməyi gözləyirik. Beləliklə, biz hazırda dəniz ticarət limanımızın və dəmir yolu infrastrukturumuzun genişləndirilməsini maliyyələşdiririk".

Söz düşmüşkən qeyd edək ki, Orta dəhliz marşrutunun mühüm hissəsi olan Bakı limanında ötən il aşırılan yüklərin ümumi həcmi 7,6 milyon ton olub ki, bu da 2023-cü ilin müvafiq göstəricisindən 3,2 faiz çoxdur. Bakı limanından konteyner daşınmasında 73, ümumi yükaşırma həcmində 3, təkrarlı texnikanın daşınmasında 7 faizdən çox artım olub.

Hesabat dövründə ayrı-ayrı sahələr üzrə ən böyük artımlardan biri Bakı limanında aşırılan konteynerlərin sayında qeydə alınıb. Təkcə ötən il limanda 76,775 TEU ekvivalentində konteyner aşırılıb ki, bu da 2023-cü illə müqayisədə 73 faizlik artım deməkdir.

Qayıdaq ÇXR-lə münasibətlərimizə. Məlumdur ki, Çin dünyada yüksək texnologiyalardan istifadə edən azsaylı ölkələrdən biridir. Hazırda bu ölkə bir çox sahədə yüksəkkeyfiyyətli məhsul istehsal edir. Və belə bir ölkə ilə ikitərəfli əlaqələrin genişlənməsi təbii ki, müsbət haldır.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 14 fevral (№ 33).- S.14.